

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

7 mart 2024-cü il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 9 (3673)


# "Yaşıl enerji" ölkəmizin prioritetlərindəndir

## Bərpaolunan enerji istehsalında Azərbaycan önəmli mövqe tutur




**Bu günlərdə ölkəmiz beynəlxalq əhəmiyyətli daha bir tədbirə ev sahibliyi etdi. "Yaşıl enerji"yə keçidlə bağlı səsləndirilən fikirlər bu məsələdə ölkəmizin aparıcı mövqe tutduğunu təsdiqləmiş oldu.**

Tədbirdə Avrasiyadakı geosiyasi vəziyyəti qiymətləndirən Prezident İlham Əliyev "Cənub qaz dəhlizi"nin tamamilə yeni marşrut olduğunu və ona artıq bir çox marşrut - interkonnektorlar əlavə edildiyinə diqqət çəkib, sonuncu - bir il əvvəlki görüşdən bəri baş vermiş mühüm hadisələrdən bir neçəsini yada salıb.

"Xəzər dənizinin Azərbaycan sektorundakı "Abşeron" qaz-kondensat yatağından hasilata başlandı. Bu, "Şahdəniz"dən sonra ikinci nəhəng qaz ehtiyatlarının kəşfi deməkdir. "Abşeron" gələcək şaxələndirmə layihələrimizin resurs bazasını təşkil edəcək. Layihənin ilk fazası artıq təsdiq olunub. Orada illik hasilatın 1,5 milyard kubmetr həcmində olması gözlənilir. İkinci faza ilə bağlı razılıq əldə edildikdən sonra daha 4-5 milyard kubmetr həcm əlavə ediləcək ki, onun da böyük əksəriyyəti beynəlxalq bazarlara nəql olunacaq".

### Azərbaycana ehtiyac var

Avropada Azərbaycan qazına tələbatın artması və bu ehtiyacın ödənilməsi kompleks tədbirlərin görülməsini gündəmə gətirib. Artıq Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan və Serbiya Azərbaycandan mavi yanacaq alır. Bu, ölkəmizin Avropada qaz təchizatı coğrafiyasını genişləndirdiyi, etibarlı tərəfdaş olduğu, eyni zamanda Azərbaycan qazına olan mövcud tələbatın artması anlamını verir.

Prezident İlham Əliyev qaz ixracının artırılmasının "yaşıl enerji" sayəsində əldə ediləcəyini vurğulayaraq bildirib ki, bərpaolunan enerji mənbələrimiz indi elektrik enerjisi istehsalına yönəldilən təbii qaza daha çox qənaət etməyə imkan verəcək.

### Nəzərlər Bakıya dikilib

"Azərbaycan bu istiqamətdə də irəliyə doğru uğurlu addımlar atıb. İşğaldan azad olunmuş ərazilər, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan edilib. Keçən ilin nailiyyətləri sırasında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyasının istifadəyə verilməsi xüsusi əhəmiyyət daşıyır. Bir neçə bərpaolunan enerji layihələri isə tikinti, qiymətləndirmə və layihələndirmə mərhələlərindədir".

Ölkəmizin rəhbəri bərpaolunan enerji ehtiyatları baxımından nəhəng pontensialımızın olduğunu və "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya "yaşıl enerji" nəql edəcəyimizi qeyd edib. Qənaət ediləcək mavi yanacağın isə "Cənub qaz dəhlizi"nə əlavə bir töhfə olacağını deyib.

Təsadüfi deyil ki, artıq ikinci ildir "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iclası ilə yanaşı, "Yaşıl Enerji" Məşvərət Şurasının da iclası keçirilir. Azərbaycanın COP29-a ev sahibliyi etməyə hazırlaşdığı, dünyanın nəzərlərinin Bakıya dikildiyi bir məqamda bütün bunların önəmi birə-beş artır.

# Əməkdaşlıq genişlənir

## Layihəyə Bolqarıstan da qatılacaq

Prezident İlham Əliyev martın 4-də Bolqarıstan Respublikası Xalq Məclisinin sədri Rosen Dimitrov Jelyazkovu qəbul edib. Münasibətlərin strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini vurğulayan Rosen Dimitrov Jelyazkov ölkə başçımızı Azərbaycanın COP29-a ev sahibliyi etməsi münasibətilə təbrik edib. Dövlətimizin rəhbəri yaşıl enerji layihəsi çərçivəsində Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli layihəsinə Bolqarıstanın qoşulmaq niyyətini müsbət dəyərləndirib.

# Forum keçirilib

## Tədbirdə müxtəlif mövzularda fikir mübadiləsi aparılıb

Prezident Rəcəb Tayyib Ərdoğanın himayəsində, Türkiyənin Xarici İşlər Nazirliyinin ev sahibliyi ilə təşkil olunan III Antalya Diplomatiya Forumuna 148 ölkədən 4700 nəfər qatılıb. "Böhranlar dövründə diplomatiyanı önə çıxarmaq" mövzusu ilə baş tutan beynəlxalq tədbirdə müasir çağırışlarla səsləşən məsələlər müzakirə olunub.

# COP29 üçün...

## Özəl sektorlara da üstünlük veriləcək

BƏƏ COP29 iqlim konfransı ərəfəsində maliyyə səylərini səfərbər edir. Bu məqsədlə hər il 100 milyard dollar toplamaq üçün iyun ayında xüsusi iclas keçiriləcək. Məqsəd Bakıda keçirilməsi planlaşdırılan BMT-nin İqlim Dəyişikliyi üzrə COP29 konfransında inkişaf etməkdə olan ölkələr üçün iqlimin maliyyələşdirilməsində əhəmiyyətli sürətlənməyə yol açmaqdır.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev martın 5-də "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.
- Prezident İlham Əliyev martın 5-də Azərbaycan Respublikasında media sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Azər Nəriman oğlu Xəlilovun 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Prezident İlham Əliyev martın 4-də Pakistan İslam Respublikasının Baş naziri vəzifəsinə yenidən seçilməsi münasibətilə Zati-aliləri cənab Məhəmməd Şahbaz Şərifə təbrik məktubu ünvanlayıb.

# Daxili işlər naziri sıra baxışı keçirib

## Seçim turunda iştirak edənlərdən 28 nəfəri Vətən müharibəsinin iştirakçısıdır



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 5-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 210 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 28 nəfəri Vətən müharibəsinin iştirakçısıdır.

Nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.




Gənc əməkdaşlara tövsiyələr verilib 2

Günün aktual mövzusu 2

Döyüşə oğullar gedir 3

Polis hazırlıqlı olmalıdır 4

# Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən mart ayının 28-də Şamaxı Rayon Polis Şöbəsinin inzibati binasında Şamaxı, Qobustan, Ağsu, Göyçay və İsmayıllı şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 27.03.2024-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Azad edilmiş ərazilərə 12,1 milyard manat vəsait ayrılıb

Dövlət Proqramının icrası üçün 2022-2026-cı illərdə təqibən 32 milyard manat məbləğində vəsait tələb olunur. 2021-2023-cü illərdə dövlət büdcəsindən bu məqsədə 12,1 milyard manat vəsait ayrılıb. Bu barədə Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatda bildirilir. Qeyd edək ki, ötən il dövlət büdcəsindən azad edilmiş ərzilərin yenidən qurulması üçün 5 milyard 588 milyon manat vəsait ayrılıb.

### Nuru Paşa anılıb

Türk Dövlətləri Parlament Assambleyasının Katibliyi Qafqaz İslam Ordusunun komandanı, "Bakının xilaskarı" Nuru Paşanın əbədiyyətə qovuşmasının 75-ci ildönümünə həsr edilmiş anım tədbiri keçirib. TÜRKPA-nın Baş katibi Mehmet Sürreya Er Nuru Paşanın döyüş yolundan, göstərdiyi qəhrəmanlıqlardan söz açıb. Tədbirdə 44 günlük Vətən müharibəsinin iki ölkənin möhkəm qardaşlıq bağlarını bütün dünyaya bir daha nümayiş etdirdiyi də məmnunluqla vurğulanıb.

### Məktəblərə nəzarət gücləndirilir

Bakı şəhərinin təhsil müəssisələrində tədris və idarəetmə proseslərinin tamamilə elektronlaşması üzrə sistemin yaradılması planlaşdırılır. Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən bildirilib. Sözügedən sistem təhsil müəssisələrində nəzarəti gücləndirməyə, tədris prosesi ilə bağlı məlumatların operativ və effektiv şəkildə izlənilməsi və təhlil edilməsinə, həmçinin akademik bacarıqların, eləcə də şagird davamiyyətinin qeydə alınması və monitorinqini həyata keçirməyə imkan verəcək.

### Yeni qəsəbə yaradılır

"Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanun layihəsinə əsasən, Şəfəq qəsəbəsi mərkəz olmaqla Şəfəq qəsəbə inzibati ərazi dairəsi yaradılacaq və o Azərbaycan Respublikasının ərazi vahidlərinin Dövlət reyestrinə daxil ediləcək. Qəsəbənin ərazisi 258 hektar olacaq. Hazırda faktiki əhalisi isə 8850 nəfərdir.

### Müavinət təyinatı elektronlaşdırılıb

Daha bir sosial ödəniş növünün - himayədar ailələrə verilmiş uşağın tərbiyə edilməsinə görə nəzərdə tutulan aylıq müavinətlərin təyinatı da elektronlaşdırılıb. Bu müavinətlə yanaşı, himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün hər rübdə bir dəfə verilən birdəfəlik müavinətlərin təyinatı da avtomatlaşdırılıb.

### Əlcəzairlə əməkdaşlıq müzakirə olunub

Qaz İxrac edən Ölkələr Forumunun VII Zirvə Toplantısı çərçivəsində Azərbaycanla Əlcəzairin enerji sahəsində əməkdaşlığının cari vəziyyəti nəzərdən keçirilib. 2022-ci ildə Azərbaycan ilə Əlcəzair arasında imzalanmış Anlaşma Memorandumuna müvafiq olaraq Birgə İşçi Qrupunun işlənməsi prosesinin sürətləndirilməsi razılaşdırılıb. Həmçinin SOCAR və "Sonatrach" şirkətlərinin əməkdaşlığının genişləndirilməsi, Hökumətlərarası Komissiyanın yaradılması ilə bağlı məsələlər də müzakirə olunub.

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin qadın əməkdaşlarına və hərbi qulluqçularına

Hörmətli həmkarlar!

8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə sizi təbrik edir, ən xoş arzularımı çatdırıram.

Zəngin mədəni dəyərlərimizin qorunub saxlanılmasında müstəsna xidmətləri olan Azərbaycan Qadını həmişə ailənin etibarlı dayağı olmuş, saflığı, sədaqəti, qabaqcıl düşüncəsi, yenilikçi və mütərəqqi ruhu ilə seçilmişdir.

Ölkəmizin ictimai həyatında mühüm rol oynayan, öz potensialını və enerjisini Azərbaycanın davamlı inkişafına sərf edən qadınlar bu gün də böyük əzmlə çalışır, eyni zamanda rəşadətli, yurdunu və torpağını sevən vətənpərvər övladlar yetişdirirlər.

Qurub-yaratmaq əzmi tükənməyən, cəmiyyət həyatına yüksək dəyərlər bəxş edən Azərbaycan Qadınının mədəniyyətlərarası dialoqun formalaşdırılmasında misilsiz xidmətləri respublikamızın hüdudlarından kənarda da yüksək qiymətləndirilir.

Daxili işlər orqanlarında və Daxili Qoşunlarda çalışan qadınların da öz məsul vəzifələrini layiqincə yerinə yetirdiklərini məmnunluqla qeyd edir və bu əlamətdar gündə hamınıza möhkəm cansağlığı, ailə səadəti, xidmətdə uğurlar arzulayıram!

Bayramınız mübarək olsun!



*Vilayət Eyvazov*
*Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik*

# Gənc əməkdaşlara tövsiyələr verilib

## Nəzəri biliklər təcrübədə sınaqdan keçirilir

**Polis əməkdaşlarının mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə DİN-in müvafiq əmrinə əsasən "Daxili işlər orqanlarında ideoloji işin aparılması ilə bağlı 2024-cü ildə Şəxsi Heyətlə İş İdarəsi tərəfindən keçiriləcək seminar-məşğələlərin Plan Cədvəli"nə uyğun olaraq cənub bölgəsində seminarlar təşkil edilib.**







"Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dinamik inkişafı ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yolun uğurlu davamıdır", "Daxili işlər orqanları əməkdaşlarının etik davranış Kodeksi" əməkdaşların xidmət zamanı və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına əməl etməsinə, polisin cəmiyyətdə nüfuzunun artırılmasına xidmət edən normativ və nizamlayıcı sənəd kimi", "Etik davranış qaydalarına zidd olan pis vərdişlərlə mübarizə və sosial şəbəkələrdən istifadənin yolverilməzliyi, cəmiyyətdə qəbul olunmuş mənəvi, əxlaqi və mədəni davranış, ailə-məişət normalarına riayət olunmasının vacibliyi" və "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı keçirilən məşğələlərdə DİN-in Şəxsi Heyətlə İş İdarəsinin şöbə rəisi polis polkovnik-leytenantı Firdovsi Nəsirov və baş inspektor polis polkovniki Laçın Paşayev mühazirə ilə çıxış ediblər.

Çıxışlarda xidmət zamanı və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına, eləcə də cəmiyyətdə qəbul olunmuş mənəvi-əxlaqi və mədəni davranış, ailə-məişət normalarına riayət edilməsinin vacibliyi vurğulanıb.

Görüşlərdə Vətən müharibəsindən və antiterror tədbirlərindən sonra ölkəmizin dünyada güclənən mövqeyi ilə bağlı fikirlər də şəxsi heyətin diqqətinə çatdırılıb.

*"Polis"*

# Günün aktual mövzusu

## Qanunvericiliyin və ictimai müzakirələrin təsiri artacaq

Polis müdaxilə edib erkən nikahın qarşısını aldı. Bəs, polis müdaxilə etməsəydi necə olacaqdı sualına cavabın yoxluğu məsələnin ictimailəşməsinə və cəmiyyətin bu mövzuda öləziyən nəbzini yoxlamaq üçün fürsət yaratdı.

Uzaq və yaxud da doğma birinə biganəliyi ölçmək üçün ölçü vahidi ixtira olunmasa da övladını erkən nikah adlı bəlaya sürükləyib ona xeyir-dua verənlərin, daha doğrusu, valideyn adı daşıyanların cəzalandırılmasına nə cəmiyyət, nə də rəsmi qurumlar biganəlik nümayiş etdirmədi.

Digərləri üçün bu ibrət dərsi oldu deyə sevinmişdik ki, bir neçə gün öncə Salyandan gələn xəbər daha qətiyyətli addımların atılmasını labüd etdi. Artıq mental dəyərlər, azərbaycanlıyıq bizə yaraşmaz kimi söhbətlər arxa plana keçməli, qanun danışmalıdır. Çünki övladının erkən yaşda ana olmasına, onun həyatı təhlükəsinə göz yuman "valideyn" öncə vətəndaşdır və o ölkə qanunvericiliyinə görə məsuliyyət daşıyır.

Problemlə mübarizənin qanunvericilikdə dəyişikliklərlə müşahidə olunmasını ictimai fikrin təsiri ilə də əlaqələndirmək olar. Əlbəttə ki, ictimai fikrin dəyişməsinə səbəb olan faktorlardan biri kimi polis də daxil olmaqla digər qurumların apardıqları maarifləndirmə tədbirləri diqqətçəkəndir. Ötən il daxili işlər orqanlarının yetkinlik yaşına çatmayanlarla iş sahəsinə cavabdehlik daşıyan struktur qurumlarının əməkdaşlarının iştirakı ilə respublikanın şəhər və rayonları üzrə orta ümumtəhsil məktəblərində 2700-dən çox görüş və yığıncaq keçirilmişdir. Yeniyetmələrlə yanaşı, onların valideynlərinin də cəlb olunduğu tədbirlərdə "Təhsildən yayınmanın acı nəticələri", "Erkən nikah savad-



sızlığın və məişət zorakılığının bir formasıdır", "Ailə dəyərləri" və azyaşlıların hüquq pozuntularının profilaktikası ilə bağlı məsələlər müzakirə edilmiş, çıxış və məruzələr dinlənilmişdir. Yeri gəlmişkən, 2023-cü il ərzində erkən nikahla bağlı daxili işlər orqanlarına 50 müraciətdən 20-si ilə bağlı cinayət işi başlanmışdır.

### Valideynlər məsuliyyət daşıyır

Əslində, erkən yaşda ailə qurmağa məcbur edilən azyaşlıların sonrakı aqibətinə görə məsuliyyət valideynlərin üzərinə düşür. Təəssüflər olsun ki, 2022-ci ilin statistik göstəricilərində əksini tapan rəqəmlər məsələyə yanaşmada gecikdiyimizi əks etdirir. Belə ki, 2022-ci ildə 18 yaşadək olan analar tərəfindən 2011 uşaq dünyaya gətirilib. 2021-ci illə müqayisədə 361 nəfər artım olub. Ən yüksək göstəricilər Qazax-Tovuz, Mərkəzi Aran və Qarabağ iqtisadi rayonlarında qeydə alınıb. Ailə Məcəlləsinə əsasən, nikah yaşının bir yaş azaldılması ilə bağlı yerli icra hakimiyyəti orqanları tərəfindən 271 qərar qəbul edilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yerli icra hakimiyyəti orqanlarından əldə etdiyi məlumata əsasən, 269 erkən evliliyin qarşısı alınıb. Cinayət Məcəlləsinin 176-1-ci maddəsi ilə yetkinlik yaşına çatmayan qızı nikaha məcbur etməyə görə 2023-cü ildə bir cinayət işi açılıb.

### Narahatedici məqam

Erkən nikahın qurbanları olan qızların konstitusiyamızda əksini tapan təhsil almaq hüququnun, sözün əsl mənasında, azadlığının əlindən alınması onları çıxış yolu kimi intihara sövq edir. Məhz bu narahatedici məsələyə ölkə qanunvericiliyinin yanaşması qətidir-səbəbkarlar ciddi cəzalandırılır.

### İctimai müzakirələr nəyi dəyişəcək?

Son günlər nikah yaşının azaldılmaması ictimai müzakirələrə yol açıb. Problemə münasibət birmənalı deyil. Rəy bildirənlər müxtəlif cəbhələrə bölünsələr də 14,15,16 yaşlarında ərə verilənlərin sonrakı taleyi hər birimizi narahat edir. Yaxşı olardı ki, qanunvericilik və ictimai rəy erkən nikaha vadar edilənlərin tərəfində olsun. Məhz belə olduğu halda erkən nikahın qurbanı olan şəxs öz müstəqil mövqeyini ortaya qoyacaq, kimsənin təhdidi ilə rastlaşmayacaqdır. Gəlinən qənaət budur ki, sözügedən mövzu ilə bağlı gələcəkdə qəbul ediləcək qanunları görməzlikdən gələnləri məsuliyyətdən azad edəcək mexanizm işə düşməyəcək, əksinə, onlar həm də ictimai qınaqla üzbəüz qalacaqlar.

*Hafiz Təmirov*
*polis polkovnik-leytenantı*

# Döyüşə oğullar gedir

## Vətənə xidmət də alın yazısıdır

**Vətən müharibəsinə qədər olan dönəm ərzində Qarabağ probleminin çözülməsi, Qafqazın sülh evinə çevrilməsi üçün gedən diplomatik sferalarda dəmir yumruğumuz düşməni və onun sığındığı gücləri darmadağın etmişdi.**





Tarixi faktlar qarşısında matı-qutu quruyanlar növbəti taktiki gedişlərini etməkdə aciz idilər. Regionda Azərbaycanın nüfuzunun yüksələn xətlə inkişafı, qüvvələr balansının xeyrimizə dəyişməsi vəziyyəti nəzarətimizdə saxlamağa imkan verirdi. Bütün bunları görməzlikdən gələn düşmən tarixi bir səhvə imza atdı. “Yeni müharibə, yeni torpaqlar” ideyası onun məhvini tezləşdirdi. Beləliklə, 27 sentyabr 2020-ci ildə Azərbaycan xalqı Ali Baş Komandan Prezident İlham Əliyevin hücum əmri ilə arzusunu gerçəkləşdirdi. Torpaqlarımızın işğaldan azad olunması cəmi 44 gün çəkdi. Şuşanın işğaldan azad olunması isə dünyanın hərb tarixində az-az rastlanan hallardan idi.

Tarixi qələbəyə imza atmaqla şəhid oğulların ruhunu sevindirdik, dünyaya sübut etdik ki, Qarabağ Azərbaycandır!

Qələbə sevincini bizə yaşadan qəhrəman oğullardan biri də Əliyev Rəşid Rövşən oğludur.

O, 1999-cu il noyabrın 23-də Bakıda doğulub. Binəqədi rayonunda yerləşən 135 nömrəli tam orta məktəbdə təhsilini başa vurduqdan sonra 2017-ci ildə Naxçıvan Muxtar Respublikasına hərbi xidmətə yollanıb.

Düşmənlə ilk döyüşü Cəbrayılda olub. Sonra Qubadlı rayonunun azad edilməsi uğrunda gedən döyüşlərdə də iştirak edib.

Rəşid deyir ki, bu gün ona görə qürurludur ki, şəhidlərimizin qisasını almaq, torpaqlarımızı işğaldan azad etmək ona da nəsib olub.

R.Əliyev daxili işlər orqanlarının sıralarına qatılmaq üçün müraciət edib. Müraciətinə müsbət cavab verilib. 2021-ci ildən Səbail RPİ-nin Post-Patrul Xidməti Bölüyündə xidmət edir. Polis serjantıdır.

O, “Qubadlının azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunub.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Şəhid polislər yad olunub

## Onların xatirə gecəsində doğmaları da iştirak ediblər

**Paytaxtın Qaradağ rayonundakı şəhid Elxan İsmayılov adına 253 nömrəli tam orta məktəbdə I Qarabağ müharibəsində itkin düşən şəhid polislərin xatirəsinə həsr olunmuş “Unutmadıq” adlı xatirə gecəsi keçirilib.**

Qeyd olunub ki, 1993-cü il oktyabrın 25-də Cəbrayıl rayonunun Dərzili kəndi yaxınlığında qanlı döyüşlərdə həlak olduqları güman edilən və bu günə qədər barələrində heç bir məlumat əldə olunmayan İsmayıl Barat oğlu İsmayılov, Elşad Əvəz oğlu Nərimanov, Möhlət Bəhmən oğlu İsmayılov, İlham İmamqulu oğlu Quliyev, Aqil Mehralı oğlu Quliyev, Sabir Əziz oğlu Paşayev və Fazil Arif oğlu Bəşirovun xatirəsi unudulmur, daim ehtiramla yad edilirlər.

Tədbirdə türkiyəli polis-şair Cahit Günayın azərbaycanlı igid həmkarları barədə çıxışı, sənətçi İbrahim Cankardeşlerin “7 fədai igid” kitabının müəllifi Zəminə Cavadlının və Lalə İsmayılın “Məzarsızlar”, “Bayraq oldu”, “Durnalar” adlı şeirlərini səsləndirməsi maraqla qarşılanıb.

Sonra 7 şəhid polis haqqında məlumat verilib, onların nadir döyüş kadrları izlənib.

Şəhidlərin ailə üzvlərindən Gülüzə İbadova, Bikəxanım Quliyeva, Gülnarə Quliyeva, Rafael İsmayılov, Mürvət Qocayev, Tamaşa Quliyeva, məktəbin adını daşıdığı şəhid Elxanın bacısı Nailə İsmayılova əzizlərinə göstərilən yüksək ehtirama görə razılıqlarını ifadə ediblər. Şəhid polislərin döyüş yoldaşı Süleyman Rəhimov məhz onların hünəri sayəsində çoxsaylı dinc əhalinin xilas edildiyini vurğulayıb, xatirələrini bölüşüb. “Mirvarid Dilbazi Poeziya Məclisi” İctimai Birliyinin sədri, Kələğayı muzeyinin direktoru Güllü Eldar Tomarlının çıxışı da qədirbilənlik duyğuları kimi qarşılanıb.

*“Polis”*

# Təhlükədən uzaq olmaq üçün...

## Uşaqlara yol hərəkəti qaydaları erkən yaşda öyrədilməlidir






Əsas məqsədi şagirdlərə yol hərəkəti qaydalarını aşılamaq, eyni zamanda təbliğ etmək olan “Məktəblinin dostu” layihəsi çərçivəsində Bakı şəhər DYP İdarəsinin təşəbbüsü və Xəzər Rayon Polis İdarəsinin təşkilatçılığı ilə **şəhid Ramiz Qasımov adına 216 nömrəli orta məktəbdə** "Yol hərəkəti qaydalarına riayət edək, təhlükədən uzaq olaq" mövzusunda maarifləndirici tədbir keçirilib.

Görüşdə çıxış edən RPİ-nin xidmət üzrə rəis müavini polis mayoru Azər Məmmədov şagirdlərin yol hərəkəti qaydalarını bilməsi üçün həm müəllimlərin, həm də valideynlərin üzərinə böyük məsuliyyət düşdüyünü bildirib. Qeyd olunub ki, uşaqlar yol hərəkətinə dair bilikləri dərindən mənimsəməli və gündəlik həyatda istifadə bacarığını inkişaf etdirməlidirlər.

Təhlükələrdən qorunmaq naminə yol hərəkəti qaydalarına ciddi riayət olunmasının vacibliyinə toxunan Bakı şəhər DYPİ-nin əməkdaşı polis kapitanı Pərvanə Muradova şagirdlərin erkən yaşlarda maarifləndirilməsinin əhəmiyyətini xüsusi vurğulayıb.

Daha bir görüş **204 nömrəli tam orta məktəbdə** keçirilib. DYP təmsilçiləri maarifləndirici görüşlərin yollarda uşaq travmatizminin minimuma endirilməsində, habelə uşaq və yeniyetmələr arasında yol hərəkəti mədəniyyətinin formalaşmasında əhəmiyyətli rol oynadığını bildiriblər.

Tədbirlərin sonunda yol hərəkəti təhlükəsizliyinə aid müxtəlif şeirlər səsləndirən, eləcə də səhnəciklər nümayiş etdirən azyaşlılara hədiyyələr təqdim olunub, onları maraqlandıran suallar cavablandırılıb.

*T.Əlizadə*
*R.Vəliyev*

# Narkoşəbəkə üzvləri tutulub

## Polis narkotacirlərə aman vermədi

Gəncə Şəhər Baş Polis İdarəsinin Narkotiklərlə Mübarizə Bölməsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İran İslam Respublikasından qeyri-qanuni yolla ölkə ərazisinə gətirilmiş narkotik vasitənin ölkə ərazisində çatdırılmasını təmin etmək istəyən Samux rayon sakini Elşən Xəlilov saxlanılıb. Şübhəli şəxsin üzərinə baxış keçirilən zaman əlindəki çantadan qara bazarda qiyməti 500.000 manata yaxın olan 14 kq 926 qram çəkidə narkotik vasitə olan heroin aşkar edilərək götürülüb.

Baş İdarənin Cinayət Axtarışı İdarəsinin əməkdaşları da əməliyyat keçirib. Polis tərəfindən saxlanılan şəhər sakini Yaşar Abbasovun əlindəki çantadan 18 kq 400 qram çəkidə qurudulmuş marixuana aşkar edilib. Dindirilmə zamanı şübhəli şəxs narkotik vasitənin ona aid olmasını, bir müddət əvvəl gizlətdiyi yerdən götürüb Gəncə şəhərinə gətirən zaman saxlanılmasını etiraf edib.

Bundan başqa, Gəncə Şəhər Baş Polis İdarəsi və onun tabeli qurumlarının əməkdaşlarının həftə ərzində keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qanunsuz olaraq narkotik vasitə əldə edib saxlamaqda və satmaqda şübhəli bilinən 20-ə yaxın şəxs saxlanılıb. Saxlanılanların üzərindən, avtomobillərindən, yaşadıqları evlərdən müxtəlif çeşidli narkotik vasitələr və güclü təsiredici gücə malik narkotik maddələr aşkar edilərək götürülüb.

Həmin şəxslərin daxil olduqları narkoşəbəkənin digər üzvlərinin müəyyən edilməsi və narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan digər şəxslərin tutulmaları istiqamətində əməliyyatlar davam etdirilir.

*Eşqin Qasımov*
*polis kapitanı*

# Quldurluq və oğurluq etdilər

## Şübhəli şəxslər yaxalanıblar



Suraxanı qəsəbəsi ərazisində “KİA” markalı avtomobildə sürücünün kəsici alətlə hədələnərək 260 manatının və mobil telefonunun quldurluq yolu ilə talanması barədə polisə məlumat daxil olub. Suraxanı RPİ-nin 31-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə quldurluq əməlini törətməkdə şübhəli bilinən Şahin Hüseynov müəyyən olunaraq saxlanılıb.

Şöbə əməkdaşlarının keçirdikləri digər əməliyyat tədbiri nəticəsində isə Əmircan qəsəbəsi ərazisində evlərin birindən 3100 manat və 3300 manat dəyərində qızıl-zinət və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Mehman Süleymanov və Baloğlan Mehtiyev müəyyən olunaraq saxlanılıblar.

# Uğurlu əməliyyat

## “Makarov”la gəzən tutuldu



Nərimanov Rayon Polis İdarəsinin 17-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbir zamanı narkotiklərin qanunsuz dövriyyəsini təşkil edən Fərid Əliyev saxlanılıb. Onun üzərindən 3 kiloqram marixuana aşkar edilib.

Şöbə əməkdaşları tərəfindən həyata keçirilən daha bir əməliyyat zamanı qanunsuz olaraq odlu silah gəzdirən Eyvaz Ələsgərov da saxlanılıb. Həmin şəxsdən “Makarov” markalı tapança, 7 ədəd patron və daraq aşkar edilib.

Həmçinin, Şöbə əməkdaşlarının vətəndaşlar arasında apardıqları profilaktik söhbətlərlə ümumilikdə 11 ədəd ov tüfəngi də könüllü olaraq polis əməkdaşlarına təhvil verilib. Əlavə tədbirlər zamanı istintaq orqanları tərəfindən axtarışda olan 11, mülki axtarışda olan 32 şəxs müəyyən edilib və barələrində qanunauyğun tədbirlər görülüb.

# "Ət tədarükçüsü" saxlanılıb

## Ölmüş heyvanların ətini ucuz qiymətə sifarişçiyə çatdırırmış



Mənşəyi məlum olmayan, insan sağlamlığı üçün təhlükəli olan ət məhsullarının kütləvi tədarükünü təşkil edən şəxs polis əməkdaşları tərəfindən saxlanılıb.

Polis və Qida Təhlükəsizliyi Agentliyi əməkdaşlarının birgə həyata keçirdiyi tədbirlərlə Hüseynov Orxan Cabbar oğlunun Bərdə rayonunda həyətyanı sahəsində kəsim-tədarük məntəqəsi yaratması müəyyən edilib. Məlum olub ki, kəsim məntəqəsində qida üçün yararsız məhsullar mal ətləri ilə qarışdırılaraq emal olunub. Antisanitar şəraitdə xəstə, ölmüş heyvanların kəsimi təşkil edilib, qablaşdırılıb və ucuz qiymətə sifarişçiyə çatdırılması planlaşdırılıb. Araşdırmalar və aşkarlanan heyvan qalıqlarının, ət nümunələrinin analizləri nəticəsində satışa hazırlanan məhsulların at və ulaq cəsədlərindən ibarət olması müəyyən edilib.

Şübhəli bilinən şəxsin Bərdə rayonu Kəngərli qəsəbəsində yerləşən həyətyanı sahəsindən və saxlanc yerindən 2 tondan çox at və ulaq əti aşkarlanıb. Təyin olunan müvafiq ekspertizalar zamanı maddi sübut kimi götürülən həmin ət nümunələrinin qidaya tam yararsız və insan sağlamlığı üçün təhlükəli olması sübuta yetirilib.

*Anar Qafarov*
*polis mayoru*

# Əməliyyat tədbirləri davam etdirilir

## Silahlarla birgə narkotik də aşkarlandı



Fevralın 29-dan martın 5-dək polis əməkdaşlarının keçirdikləri tədbirlərlə Xankəndi şəhəri ərazisində yerləşən qarajların birindən 3,8 kiloqram çəkidə marixuana, həmçinin şəhər ərazisindən 3 ədəd dron, 54 ədəd müxtəlif markalı avtomat silahı, 3 ədəd pulemyot, 58 ədəd tüfəng, 39 ədəd qumbara, 48 ədəd alışdırıcı, 135 ədəd patron darağı, 6333 ədəd müxtəlif çaplı patron, 30 ədəd rabitə vasitəsi və digər sursatlar aşkar olunaraq götürülüb.

# Papin bacıları

## Valideyn nəvazişi uşaqların psixologiyasına təsir edən amillərdəndir





Bu gün müasir texnologiyaların yaratdığı imkanlarla törədilmiş cinayətlərin üstünün açılması böyük zaman alır. Cinayətlər də açılır, onu törədənlər də layiqli cəzalarına çatırlar. Lakin illər öncə qeyri-aşkar şəraitdə törədilmiş qətllər var ki, şübhəlilər ya tapılmayıb, ya da dəlil-sübut olmadığı üçün sərbəst buraxılıblar. Təqdim etdiyimiz bu yazıda isə nəfəs kəsən cinayəti törədənlərin psixoloji durumları daha çox diqqət çəkir.

### Cinayətə qədər olanlar

Uşaqlığı çox çətin keçən bacılar Le Mans şəhərinin cənubundakı kiçik kəndlərdən birində dünyaya gəlmişdilər. Ataları və anaları onları valideyn nəvazişindən məhrum etmişdilər. Hər gün psixoloji təzyiqlə üzləşən qızların həyatda tutunacaqları kimsəsi yoxdu. Bacılar Le Mans şəhərində varlı insanların evlərində qulluqçu kimi işləməyə başladılar. 1926-cı ildən onlar təqaüddə olan vəkil Rene Lanselə, onun həyat yoldaşı Madam Lanselə və qızlarına xidmət edirdilər. Valideyn nəvazişi görməyən bacılar biri-birinə çox bağlı idi. Hər gün ev işləri ilə məşğul olmaları onları yormurdu. Ancaq ev sahibəsinin özündən razılığı, onlarla bərabər öz qızına da qaba davranmaları bacıların xoşuna gəlmirdi.

Papinlər ev sahibəsinin buyruqlarını yerinə yetirməmək üçün onların gözünə az görünməyə çalışırdılar. Diqqətdən uzaq olmaq işlərinə yarasa da qadın qısqanclığı bacıları qatil olmağa sövq edir. Maraqlı məqam bu idi ki, bacıların biri-birinə çox bağlılığı psixoloji problemə çevrilirdi. Ev yiyəsinin onlardan birinə ağır söz deməsi, səhlənkarlıqda ittiham etməsi digərinin xoşuna gəlmirdi. Bacılarda belə bir fikir formalaşmışdı ki, ev sahibəsinin bu tənqidləri onları bir-birindən ayırmaq üçün atılan addımdır.

### Qadın qısqanclığı

1933-cü il fevralın 2-də o hadisə baş verdi. Bacılar ömürlərinin çoxunu zindanda keçirmələrinə, hətta onlara ölüm hökmü çıxarılmasına səbəb olacaq cinayətə əl atmışdılar.

Hadisə belə olmuşdu. Ev sahibi Lansel arvadı və qızı ilə nahar etmək üçün görüşməli idilər. O, həyat yoldaşının və qızının gecikdiyinə görə narahat olmağa başladı. Evə gələndə isə qapının bağlı olduğunu gördü. Nə qədər səsləsə də nə yoldaşı, nə qızı, nə də qulluqçu bacılar səs vermədi...

Polislər evə daxil olanda Lanselin arvadının və qızının tanınmaz halda olan meyitləri ilə qarşılaşdılar. Onların başları əzilmiş, gözləri çıxarılmışdı. Hiss olunurdu ki, hər iki şəxsə ağır işkəncə verdikdən sonra öldürmüşdülər.

Polisləri təəccübləndirən daha bir məqam isə bacıların qulluqçular üçün nəzərdə tutulmuş otaqda bir-birinə sarılaraq yuxuya getmələri idi. Onlar dindirilərkən törətdikləri əməli etiraf ediblər. Cinayətə səbəb qadın qısqanclığı imiş.

Fransanın Le Mans şəhərində xidmətçi işləyən bacılardan birinin-Lea Papinin 15, Kristin Papinin isə 20 yaşı vardı cinayəti törədəndə. Bu, sıradan bir cinayət deyildi və onun sədası tezliklə bütün ölkəyə yayıldı. Ev sahibini və onun qızını vəhşicəsinə qətlə yetirən bacıların törətdiyi əməlin dövrün kriminalistləri patriarxal sistemin təzyiqlərinə edilən üsyan, diqqət çəkmə narahatlığının və nəhəng bir qəzəbin məhsulu kimi yanaşdılar.

Məhkəmənin qərarı ilə böyük bacı Kristina ölüm cəzasına məhkum edilib. Sonradan onun ölüm cəzası ömürlük həbslə dəyişdirilib. Balaca Lea azyaşlı olduğu üçün 10 il müddətinə ağır islah işlərə cəlb olunub. Bacıların bu cinayəti əsasında Vendi Kesselmanın "My Sister in This House" teatr tamaşası səhnələşdirilmişdir.

*Hazırladı: Aytən Tahirova*

# Güclülər qalib gəldi

## Fiziki hazırlıq əsas şərtlərdəndir





Bu günlərdə DİN İdman Cəmiyyətində güc çoxnövçülüyü üzrə daxili işlər orqanları əməkdaşları arasında çempionat keçirilib.

Yarışda Daxili Qoşunların, Əlahiddə Çevik Polis Alayının, Sumqayıt Şəhər Polis İdarəsinin, Nəqliyyatda Baş Polis İdarəsinin, DİN Baş Mühafizə İdarəsinin, Diplomatik Nümayəndəliklərin Mühafizəsi Üzrə Əlahiddə Polis Taborunun, Sıravı və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin, Gəncə Şəhər Baş Polis İdarəsinin, Baş Dövlət Yol Polisi İdarəsinin, Bakı Şəhər Baş Polis İdarəsinin komandaları iştirak edib. Ağır çəki daşlarının qaldırılması və qol güləşi üzrə 5 çəki dərəcəsində sınağa çəkilən həmkarlarımız qələbə uğrunda mübarizə aparıblar.

Yarışın nəticələrinə əsasən DİN Daxili Qoşunların komandası birinci olub. Sumqayıt Şəhər Polis İdarəsi ikinci, Əlahiddə Çevik Polis Alayı isə üçüncü yerdə qərarlaşıb.

# Polis xəfiyyəsi Ejen Fransua Vidokun memuarları - Yeni macəra axtarışında

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

Görünmədən onları izləmək qərarına gəldim. Əgər dostlarım çaşıb qarovul postunun yanından keçsələr, gərək, məndən inciməsinlər. Əks halda gedəcəkləri yerə qədər onları izləyib, sonra polisə məlumat verəcəkdim. Bir neçə addım atmağa macal tapmamış məni səslədiklərini eşitdim: "Jan-Luis". Tez-tez oğru məclislərində gördüyüm Rişlenin səsini tanıyıb dayandım.

- "Axşamın xeyir, Rişle", - deyə, mən cavab verdim. "Gecənin bu vaxtı burda nə itin azıb? Təksən, yoxsa yanında kimsə var? İnan, qorxudan elə günə düşmüsən ki, səsini eşitməsəydim çətin səni tanıyardım.

- Qorxaram da, az qala ilişəcəkdim.

- Nə üçün ilişmişdin? Nə baş verdiyini əməlli-başlı danış görüm.

- Yaxın gəl, özün hər şeyi anlayacaqsan.

- Hə, bax indi hər şeyi başa düşdüm.

Onlara yaxınlaşanda bütün dəstə üzvləri ayağa qalxdı. Lapyer, Kamri, Leunar və Debüsini tanıdım. Dördü də mənə əl uzadaraq, səmimiyyətlə salamlaşdılar.

- Kamri: Heç, deməyə sözüm yoxdu, canımızı yaxşı qurtardıq. Həyəcandan ürəyim elə döyünür ki, az qala yerindən çıxacaq. Əlinizi bura qoysanız necə titrədiyini hiss edərsiz.

- Mən: Bir sakitləşin görək, özünüzü ələ alın.

- Lapyer: Necə bir təhlükədən qurtulduğumuz yadıma düşəndə canıma üşütmə düşür. İnanırsan? Yaşıl paltarlılar düz arxamızdan keçdilər. (Həmin dönəmdə Parisdə xidmət aparan mühafizə polisləri yaşıl rəngli uniforma geyinirdilər)

- Debüsi: O bir yana, "Qrev əjdahaları" ilə Geyte yaxınlığındakı döngədə az qala burun-buruna gələcəkdik.




- Mən: Ay axmaqlar! Belə məqamlarda soyuqqanlı davranmaq lazımdır. Siz ki, belə qorxacaqsız, çətin oğru aləmində kimsə sizə hörmət eləsin.

- Rişle: Haqlısız, istədiyiniz qədər bizi danlaya bilərsiz, amma atsız olmağımızı da yaddan çıxarmayın. Polislərə yaxalanmamaq üçün yan küçələrdən istifadə etmək məcburiyyətində qaldıq.

- Mən: Bəs, indi hara gedirsiz? Bəlkə sizə yardım edim?...

- Rişle: San-Sebastiyan küçəsində yaşayan köhnə tanışımızın yanına gedirik. İstəyirsən, sən də bizimlə gəl. Malları orda saf-çürük edəcəyik, sən də payına düşəni alarsan.

- Mən: Böyük məmnuniyyətlə, dostlar.

- Rişle: Onda düş qabağa, birdən yolda polis və ya jandarma görsən, diqqətin yayınmasın, tez işarə ver!

### Xətər sovuşdu

Yol boyu hər hansı bir təhlükəylə qarşılaşmadıq və qəzasız-bəlasız deyilən ünvana çatdıq. Pilləkənlərlə yuxarı qalxanda mümkün qədər səssiz olmaq üçün ayaqqabılarımızı çıxarıb əlimizdə tutmuşduq. Ev sahibi bizi üçüncü mərtəbənin dəhlizində qarşıladı. Mən onu görən kimi tanıdım. Əvvəllər gəmiqayırma zavodunda işləyirdi. Bir anlıq "Yaman yerdə axşamladım", deyə düşündüm. Evin qapısı sakitcə açıldı və biz zəif işıqlandırılmış, lakin geniş bir otağa daxil olduq. Xoşbəxtlikdən ev sahibi məni tanımadı, amma, dostlarının onun evinə yad adam gətirməsindən narazı olması açıq-aydın hiss olunurdu. Gətirdiyimiz bağlamaları çarpayının altında gizlədəndə yanındakından pıçıltıyla nəsə soruşdu. Aldığı cavabı isə demək olar ki, hər kəs eşitdi.

- Rişle: Narahat olma, bu, Jan-Luisdir. Əla oğlandır, ona inanmaq olar, özümüzündür.

*(Ardı var)*

# Nişançılarımız sınaqda

## Təmsilçilərimiz altı bürünc, bir gümüş qazanıblar



24 fevral – 3 mart tarixlərində Macarıstanın Dyör şəhərində gənclər arasında 10 metr məsafəyə güllə atıcılığı üzrə Avropa çempionatı keçirilib.

Oğlanlar arasında keçirilən komanda yarışlarında Hacı Musayev, Vladislav Kalmıkov və DİN Daxili Qoşunların əsgəri İmran Qarayev bürünc medal qazanıblar. Qızlar arasında isə trio komanda yarışında Leyli Əliyeva, DİN İdman Cəmiyyətinin yetirmələri Sofiya Barxalova və Zeynəb Sultanova da bürünc medalla kifayətləniblər.

Qətərin paytaxtı Dohada da stend atıcılığı üzrə Əmir Qran-Pri yarışı keçirilib. Gənc idmançımız Aylin Quliyeva səngər stendi üzrə aktivinə gümüş medal yazdırıb.

# Müdriklərin söz xəzinəsi

## İnsanın ləyaqəti və mahiyyəti o, çətinliyə düşəndə bilinər

Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə.

❖❖❖

İnsan uğur qazana bilməsə də, uğur üçün əlindən gələni edibsə, heç vaxt onu qınamaq fikrinə düşməyin.

❖❖❖

Bil ki, sənin lehinə söz danışan, sənin əleyhinə də danışar, sənə söz gətirən, səndən də söz aparar.

❖❖❖

Ən yaxın dostlarınızla da danışarkən nitqinizə müəyyən sərhəd qoyun.

❖❖❖

İnsanın ləyaqəti və mahiyyəti o, çətinliyə düşəndə bilinər.

❖❖❖

Dost yaman gündə, qəhrəman savaş meydanında, qadın kasıbçılıqda, qohum başın qovğaya düşəndə sınanar.

❖❖❖

Yalan söz deməyə adət etmə, günahlar yalandan başlanır.

❖❖❖

İnsanlara layiq olmadıqları sifəti verib tərif etmək-təhrif etmək deməkdir.

❖❖❖

Azadlıq ifrat dərəcəyə çatanda özbaşınalığa çevrilir.

❖❖❖

Yeriyən axmaq yatan ağıllıdan yaxşıdır.

❖❖❖

Dərdli adamın dərdini dinləmək qaranlıq otağa pəncərə açmaq deməkdir.

*Hazırladı: T.Aytən*

# Polis hazırlıqlı olmalıdır

## Silahsız özünümüdafiə bacarıqları təkmilləşdirilir

Polis əməkdaşlarının silahsız özünümüdafiə etmə və əlbəyaxa döyüş üzrə hazırlığının artırılması ilə bağlı bölgələrdə silsilə tədbirlər keçirilib. İki mərhələdən ibarət olan yarışların birinci hissəsində silahsız özünümüdafiə fəndləri icra olunub. Yüksək xal toplayanlar ikinci mərhələyə vəsiqə qazanıblar.

Bu yarışlara ümumilikdə 1500-ə yaxın əməkdaş cəlb olunub. Yüksək nəticə nümayiş etdirənlər növbəti bölgə (zona) yarışlarında iştirak etmək hüququ qazanıblar.

DİN İdman Cəmiyyətinin nümayəndələrinin rəhbərliyi ilə keçirilən yarışların bütün mərhələlərində uğur qazanan əməkdaşlar mayda keçirilməsi planlaşdırılan DİN əməkdaşları arasında respublika çempionatına qatılacaqlar.

***Ruslan Vəliyev***
***polis baş leytenantı***

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10570
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik